Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

## ÜÇ CİLDDƏ

## II CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017

## MƏHƏRRƏM ƏLİZADƏ



(22.3.1913, Şuşa–31.8.1983, Bakı).

Dramaturq.

Məhərrəm Calal oğlu Əlizadə. Bakıda ikiillik Hüquq İnstitutunda (1928 – 1930), Bakı Dövlət Universitetinin biologiya fakültəsində (1936 – 1941), Bakı Hərbi Məktəbində (1941 – 1942) təhsil alıb. Müharibədə iştirak edib (1942 – 1945). «Bilik» cəmiyyətəində işləyib. Ali məhkəmədə katib müavini (1930 – 1933), Masallı və Ağcabədidə müəllim (1933 – 1936), «Azərbaycanfilm»də xronika şöbəsinin rəisi (1945 – 1946), «Kommunist» qəzetində (indiki «Xalq qəzeti») ədəbi işçi (1946 – 1948), «Kirpi» jurnalında müxbir (1954 – 1973) işləyib.

Yaradıcılığa 1937-ci ildə dram əsəri ilə başlayıb. Dramlar, operettalar üçün librettolor, televiziya pyesləri yazıb. Nəsr əsərləri də var. «İbrət», «Xala» («İlk qurban»), «Qığılcım», «İftira», «Toy kimindir?», «Qızılgül», «Gözün aydın», «Nazxanım naz eləyir», «Rəisin arvadı», «Altı qızın biri Pəri», «Səndən mənə yar olmaz», «Şeyx Rəhmətulla», «İki könül bir olsa», «Dağ çiçəyi», «Qonşumuzda bir oğlan var», «Sən gözəlsən», «Təzə evə köçürük», «Ailə», «Birinci toy», «Körpü» pyeslərinin müəllifidir.